*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 464-470*

https://doi.org/10.62837/2024.11.464

Dos.**QƏDİM İGID OĞLU RUFULLAYEV**
Lənkəran Dövlət Universiteti
qedim73@mail.ru

# AŞIQ ŞAİR MƏLİKBALLI QURBAN VƏ ONUN ƏDƏBİ İRSİNİN TOPLANMASINDA SALMAN MÜMTAZIN ROLU

**Xülasə**

**Açar söz: El şairi, Məlikballı Qurban, ədəbi irs, elmi araşdırma, nəşr**

Ötən əsrin əvvəllərindən sistemli şəkildə folklorun bir çox janrları ilə yanaşı, aşıq poeziyasına məxsus əsərlərin toplanması və nəşri istiqamətində uğurlu işlər görülməyə başlanılmışdır. “Aşıq şeirinin toplanmasında ədəbiyyatşünas Salman Mümtazın da xidmətini qeyd etməliyik. Onun tərtib etdiyi ikicildlik “El şairləri” kitabı bu cəhətdən diqqətəlayiqdir. Hazırda əlimizdə olan “El şairləri” kitabı Əməkdar İncəsənət xadimi Ağalar Mirzə tərəfindən böyük zəhmət hesabına tərtib edilərək yenidən nəşr olunmuşdur. Burada Salman Mümtaz tərəfindən toplanan 142 aşıq şairin 258 şeiri əksini tapır. Dirili Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım Tikmədaşlı, Maralyanlı Aşıq Pəri, Varxiyanlı Məhəmməd və onlarla belə adların ədəbi irsi bu kitabda toplanmışdır. Onlardan biri də Məlikballı Qurbandır. Məlikballı Qurban (1790-1865) indiki Göyçay rayonunun Məlikballı kəndində anadan olmuş, mədrəsə təhsili almış, əsasən, xalq şeiri üslubunda şeirlər yazmışdır. Feyzulla Qasımzadə Məlikballı Qurbanın yaradıcılığına da diqqət çəkmiş, ədəbi irsini yüksək qiymətləndirmişdir. O vurğulayırdı ki, Məlikballı Qurbanın əsərlərinin bir hissəsi ilk dəfə Salman Mümtaz tərəfindən “El şairləri” kitabında nəşr olunmuşdur. S.Mümtaz “El şairləri” kitabında Məlikballı Qurbanın qoşma, müxəmməs, təcnis və s. formalı şeirlərini vermişdir. Bu addım Məlikballı Qurbanın bir el şairi olaraq unudulmaq təhlükəsindən xilas etmiş, elmi ictimaiyyət tərəfindən tanınmasına kömək etmişdir.

**Доцент Гадим Игид оглы Руфуллаев**
**Лянкяранский государственный университет**
**qedim73@mail.ru**

## РОЛЬ САЛМАНА МУМТАЗА В СОБРАНИЕ ЛЮБВИ ПОЭТА МАЛИКБАЛЛИ Курбана И ЕГО ЛИТЕРАТУРНОГО НАСЛЕДИЯ

**Резюме**

Ключевые слова: Эль-поэт, Маликбалы Курбан, литературное наследие, научные исследования, публикации

С начала прошлого века предпринимаются успешные усилия по систематическому сбору и публикации произведений ашикской поэзии, а также

многих жанров фольклора. «Следует отметить заслуги литературного критика Салмана Мумтаза в сборнике стихов Ашика. Примечательна в этом отношении составленная им двухтомная книга «Поэты Эла». Книга «Поэты Эль», которая у нас сейчас имеется, благодаря огромным усилиям была составлена и переиздана заслуженным деятелем искусств Агаларом Мирзой. Здесь отражены 258 стихотворений 142 поэтов-любовников, собранные Салманом Мумтазом. В этой книге собрано литературное наследие Дирили Гурбани, Ашика Аббаса Туфарганлы, Ил Гасима Тикмадашли, Мараляна Ашика Пари, Вархианлы Мухаммада и десятков таких имен. Один из них – Маликбалли Гурбан. Маликбаллы Гурбан (1790-1865) родился в селе Маликбаллы нынешнего Гейчайского района, учился в медресе и преимущественно писал стихи в стиле народной поэзии. Фейзулла Гасымзаде также обратил внимание на творчество Маликбаллы Гурбани и высоко оценил его литературное наследие. Он подчеркнул, что некоторые произведения Маликбалли Гурбани были впервые опубликованы Салманом Мумтазом в книге «Поэты Эль». С. Мумтаз в книге «Эль поэты» Куплеты Маликбаллы Курбана, мухаммы, тайнисы и др. подарил свои стихи. Этот шаг спас Маликбалли Гурбана от опасности быть забытым как поэт и помог ему добиться признания в научной среде.

**Associate Professor Gadim Igid oglu Rufullaev**
**Lankaran State University**
**qedim73@mail.ru**

## THE ROLE OF SALMAN MUMTAZ IN THE COLLECTION OF THE LOVE POET MALIKBALLI GURBAN AND HIS LITERARY HERITAGE

### Summary

**Key words: People's poet, Malikballi Gurban, literary heritage, scientific research, publication**

Since the beginning of the last century, successful work has been carried out systematically to collect and publish works of ashug poetry, along with many genres of folklore. “We should also note the service of literary critic Salman Mumtaz in collecting ashug poetry. The two-volume book “El Şairları” compiled by him is noteworthy in this respect. The book “El Şairları” that we currently have was compiled and republished with great effort by Honored Artist Aghalar Mirza. It reflects 258 poems of 142 ashug poets collected by Salman Mumtaz. The literary heritage of Dirili Gurbani, Ashug Abbas Tufarganli, Khasta Qasim Tikmedashli, Maralyanli Ashug Pari, Varkhyanli Mahammad and dozens of such names is collected in this book. One of them is Malikballi Gurban. Malikballi Gurban (1790-1865) was born in the village of Malikballi in the present-day Goychay region,

received a madrasah education, and wrote poems mainly in the style of folk poetry. Feyzulla Gasimzadeh also drew attention to Malikballi Gurban's creativity and highly appreciated his literary heritage. He emphasized that some of Malikballi Gurban's works were first published by Salman Mumtaz in the book "Poets of the People". S. Mumtaz presented Malikballi Gurban's poems in the form of goshma, mukhammas, tajnis, etc. in the book "Poets of the People". This step saved Malikballi Gurban from the danger of being forgotten as a folk poet and helped him be recognized by the scientific community.

Aşıq ədəbiyyatı Azərbaycan şifahi xalq yaradıcılığının ayrılmaz tərkib hissəsidir. Xalq ədəbiyyatında lirik əsərlərin ana xəttini, məhz aşıq poeziyası təşkil edir. Çünki bu yaradıcılıq növü, əslində, xalq ruhunun ifadəsi kimi çıxış edir. Ən qədim dövrlərdən bəri Azərbaycan xalqının həyatında, arzularının tərcümanında, kədərinin ifadəsində, ayin və ediqadlarının icrasında, habelə yadellilərlə amansız mübarizəsində bu sənət qüdrətli vasitə kimi mühüm rol oynamışdır. Dədə Qorqud dövrünün qəhrəmanları, eləcə də Koroğlu dəlilərinin əsas ilhamverici qüvvələrindən biri olan saz və onun möcüzəsi fonunda ifa olunan aşıq sənəti müxtəlif dövrlərdə müxtəlif forma və məzmunu ilə diqqət çəkmişdir. Belə ki, “sinkretik səciyyə daşıyan aşıq sənətinin və onun ayrılmaz tərkib hissəsi kimi təzahür edən aşıq ədəbiyyatının ilkin təşəkkül və biçimlənmə prosesi əsasən XIII-XV əsrlər boyunu əhatə etsə də, bu tarixi mərhələdə bir tərəfdən ozan sənətinin hələlik meydanı tam olaraq tərk etməməsi, o biri tərəfdən də aşıqlıq yolunu tutan yeni tipli söz və musiqi sənətkarının ilahi eşq aşiqliyi – Haqq aşıqlığı statusunu bütün parametrləri ilə özündə cəmləşdirib başa çatdırmaması həmin dönəm daxilində sözügedən istiqamətin görkəmli simalarının ortaya çıxması imkanını gerçəkləşdirə bilməmişdir. Bu səbəbdən də sufi-dərviş mənəvi-fəlsəfi hərəkatının içərisindən ayrıca bir xətt-axın kimi zühur edən aşıqlığın ilahi-ruhani təbliğat missiyası ilə yanaşı musiqiçi-söz sənətkarına və bədii ədəbiyyat daşıyıcısına çevrilməsi kifayət qədər uzun bir zaman miqyasını əhatə etmişdir” [4, s. 3]. Ancaq sonrakı mərhələlərdə söz sənətinin Aşıq Qurbani, Tufarqanlı Aşıq Abbas, Xəstə Qasım, Aşıq Ələsgər kimi qüdrətli nümayəndələri meydana gəldikdən sonra arxaikləşməkdə olan qam, şaman, özan xətti tədricən yerini aşıq ədəbiyyatına verdi. Bununla belə, zəngin söz xəzinəmiz olan aşıq poeziyası adladığı hər bir mərhələdə xalqın dəyərləri, həyatabaxışları, inam və etiqadlarının daşıyıcısı kimi çıxış etmişdir. Ona görə də xalq məktəbi, onun milli mənəvi sərvəti kimi xarakterzə olunan aşıq ədəbiyyatı daim araşdırılmış, tədqiq olunmuş, olduğu kimi gələcək nəsillərə çatdırılması üçün lazımi addımlar atılmışdır. Ötən əsrin əvvəllərindən sistemli şəkildə folklorun bir çox janrları ilə yanaşı, aşıq poeziyasına məxsus əsərlərin toplanması və nəşri istiqamətində uğurlu işlər görülməyə başlanılmışdır. Bu sahədə Vəli Xuluflunun əməyini qeyd etmək lazımdır. Onun 1927-ci ildə nəşr etdirdiyi “El aşıqları” xüsusi əhəmiyyət daşıyır. Hümmət Əlizadənin 30-cu illərdə nəşr etdirdiyi ikicildlik “Aşıqlar” kitabı da bu baxımından

maraq doğurur. "Aşıq şeirinin toplanmasında ədəbiyyatşünas Salman Mümtazın da xidmətini qeyd etməliyik. Onun tərtib etdiyi ikicildlik "El şairləri" kitabı bu cəhətdən diqqətəlayiqdir" [2, s. 173]. Sonradan bir cilddə toplanan və "hazırda əlimizdə olan "El şairləri" kitabı Əməkdar İncəsənət xadimi Ağalar Mirzə tərəfindən böyük zəhmət hesabına tərtib edilərək yenidən nəşr olunmuşdur. Burada Salman Mümtaz tərəfindən toplanan 142 aşıq şairin 258 şeiri əksini tapır. Kitabda müəllifi olmayan daha 11 nümunə vardır" [7, s. 59-64]. Burada əsərləri toplanan aşıq şairlərin böyük bir qismi, eləcə də ədəbi irsi haqqında o dövrdə, demək olar ki, məlumat yox idi. Onların içərisində xalq arasında məşhur olan simalar da az deyil. Dirili Qurbani, Aşıq Abbas Tufarqanlı, Xəstə Qasım Tikmədaşlı, Maralyanlı Aşıq Pəri, Varxiyanlı Məhəmməd və onlarla belə adların ədəbi irsi bu kitabda toplanmışdır. Onlardan biri də Məlikballı Qurbandır. "El şairləri" kitabının hər iki cildində əsərləri toplanan Məlikballı Qurban (1790-1865) "indiki Göyçay rayonunun Məlikballı kəndində anadan olmuş, mədrəsə təhsili almış, əsasən, xalq şeiri üslubunda şeirlər yazmışdır" [8 s. 281]. Məlikballı Qurbanın şəxsi həyatı və yaradıcılığı, demək olar, az tədqiq edilmişdir. Ancaq sözügedən aşıq şairdən bəhs edən bütün mənbələrdə Salman Mümtazın bu sahədəki fəaliyyəti vurğulanmaqdadır. XIX əsrin aşıq şairlərini, o cümlədən Qavurlu İbrahib Qafil, Kazım ağa Salik, Zabit, Aşıq Pəri və bu kimi bir neçə ədəbi şəxsiyyətləri araşdıran Feyzulla Qasımzadə Məlikballı Qurbanın yaradıcılığına da diqqət çəkmiş, ədəbi irsini yüksək qiymətləndirmişdir. O vurğulayırdı ki, Məlikballı Qurbanın doğum və ölüm tarixi barədə səhih məlumat yoxdur. "Onun əsərlərinin bir hissəsi ilk dəfə (Salman Mümtaz tərəfindən red: Q.R.) "El şairləri" kitabında nəşr olunmuşdur. Burada onun 15 şeiri getmişdir. Bunların əksəriyyəti qoşma və təcnislərdən ibarətdir. M.Qurbanın əruz vəznində yazdığı şeirlərdən onun klassik ədəbiyyatın qayda və qanunlarına bələd olduğu görünür, Lakin o öz yaradıcılıq bacarığını klassik üslubda yazdığı şeirlərdən daha artıq aşıq poeziyası tərzində yazdığı qoşma və təcnislərində göstərə bilmişdir" [3 s. 103]. Başqa bir mənbədə də, təxminən, eyni fikirlər səsləndirilmişdir. Orada deyilir: Məlikballı Qurban "mədrəsə təhsili almış, aşıq şeiri üslubunda şeirlər yazmışdır. S.Mümtaz "El şairləri" kitabında Məlikballı Qurbanın qoşma, müxəmməs, təcnis və s. formalı şeirlərini vermişdir. Şeirləri "Azərbaycan aşıqları və el şairləri" kitabında və digər toplularda verilmişdir. Onun məşhur "Vücudnamə"si aşıqlar arasında geniş yayılmışdır" [4 s. 69]. Azərbaycan Aşıqlar Birliyi tərəfindən nəşr olunan "Ustad nəfəsli saz-söz ərməğanı" kitabında vurğulanır ki, Məlikballı Qurban "XIX əsrin Şirvan el şairidir. Göyçay qəzasının Məlikballı kəndində yaşayıb yaratmışdır. Mədrəsə təhsili almış, aşıq şeiri üslubunda şeirlər də düzüb qoşmuşdur. Şeirləri Şirvan aşıqlarının repertuarında geniş yayılmışdır. Onun məşhur "Vücudnamə"si həmin şeir biçiminin təkrarsız klassik örnəyi sayılmaqla yanaşı, ustadnamə xarakteri ilə də diqqət çəkən kamil bir poetik nümunədir" [9 s. 102].

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 464-470*

Göründüyü kimi, Məlikballı Qurban yaradıcılığının toplanması və nəşri istiqamətində Salman Mümtaz mühüm işlər görmüşdür. Biz hazırda bu aksiyanın əhəmiyyətini sözügedən sənətkarın yaradıcılığını xarakterzə edilməsi üşün toplanan materiallara müraciət zamanı bir daha görmüş oluruq.

"El şairləri" kitabında Məlikballı Qurban yaradıcılığına aid olan ilk qoşma "Olsun" rədifli şeirdir ki, məzmun baxımından Aşıq Ələsgərin "Ola" şeirinə bənzəyir.

| Olsun (Məlikballı Qurban) | Ola (Aşıq Ələsgər) |
|---|---|
| Bir gözəl istərəm bu evşafda,<br>Gözəllər içində xubtar olsun.<br>Qaşu qevsu-qüzeh, kipriyi xunriz,<br>Gözləri nərgiz tək xoş nəzər olsun. | Hər yetən gözələ gözəl demərəm<br>Gözəldə gərəkdi, işvə-naz ola.<br>Buxağında ətri-bənövşə gələ,<br>Qoynu gülşən ola, bahar, yaz ola. |
| Sinəsi ağ ola, özü meydanlı,<br>Qübbə tək məmələr zər giribanlı.<br>Beli nazik ola, sağrısı canlı,<br>Qəddü-qamət sərvü-sənubər olsun. | Nə uzun, nə gödək, münasib gərək,<br>Ağzı, burnu nazik, dodaq kip gərək,<br>Əndam büllur, bədən güldən saf gərək,<br>Baxtın vura, bu nişanda qız ola. |
| Ləhcəsi ahəstə, üzü xoş gülən,<br>Nuqtə-şinas, əhli-kamal, dərd bilən.<br>Aşina olmaya ona hər gələn,<br>Əhdü-iqrarında mötəbər ola. | Ərdən boşanmışdan bir az kənar dur,<br>Əri ölən gözələ bax, boynunu bur,<br>Ələsgər, torunu sən tərlana qur,<br>Bəlkə, tora düşən bir şahbaz ola [1 s. **67**]. |

Kitabda hər biri yüksək sənətkarlıq nümunəsi olmaqla daha altı qoşma əksini tapır. Belə ki, "Qurban olduğum", "Bilirmi", "Bu nə göhərdir", "Gəzər", "Ərərdən" qoşmaları "Ağlasın" şeiri istisna olmaqla nikbin ruhda məhəbbət mövzusunda ərsəyə gəlmişdir. "Bilirmi" qoması Qasım bəy Zakirin "Dedin, nə dedi" şeirindəki əhval ruhiyyəni özündə ifadə edir.

Ərzi-halım, qasid, söylə dildarə,
Gör ki, mənim ahu-zarım, bilirmi?
Dolanıb başına, öp ayağını,
Üzülübdür ixtiyarım, bilirmi?

Məlikballı Qurbanın ədəbi irsinə aid daha iki- "Şöbədəyi-sərara" və "Tökəllər seyrab" qoşması vardır ki, bunlar digər eyniadlı əsərlərdən fərqlənirlər. Belə ki, müstəzad, ayaqlı təcnislərdə olduğu kimi burada da qafiyəli, ancaq sərbəst misra vardır. Bu sərbəst misralardakı son söz sonrakı bəndin ilk sözü ilə eynilik təşkil edir. Məsələn;

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 11, 2024*
*Səh. 464-470*

Seyrab oldu sirişkimiz o yerdə,
Bərbad olsun Marağa, Tumaşlı, Bərdə.
Döndük o tərəfdən, dayandıq Kürdə,
Başdan baran töküb tutuşdu suhab,
Qabağda girdab,
İşimiz **xarab.**

**Xarab** oldu işlər düşdük dərinə,
Atıldıq lotkanın mindik birinə.
Keçdik ondan, gəldik Sirvan yerinə,
Nə gözəl adamlar yaradıb vəhhab;
Səxavət ərbab,
Biz görən **əshab.**

Şeirin növbəti bəndi "Əshab" sözü ilə başlayır və bu ənənə bütün bənlərdə özünü göstərir.

Salman Mümtaz tərəfindən toplanan və "El şairləri" kitabında əksini tapan elə nümunələr vardır ki, bu Məlikballı Qurban yaradıcılığının özünəməxsusluğundan, sənətkarlıq qüdrətindən xəbər verir. Söhbət Məlikballı Qurbanın təcnis yaradıcılığından gedir. Görkəmli aşıq şairin burada iki təcnisi əksini tapmışdır. Onları təqdim edirik:

Gözəl olan verir üzünə bəzək,
Gözü nərgiz, şümşad ayağı gərək.
Qəribanı hər tərəfdən ola çak,
Görünə sinənin ayağı gərək.

Gəl gir bu bağçanın laləsin bilək,
Görək qönçələrin laləsinə bilək,
Gəlməz təkəllümə laləsinə bilək,
Gör olmuş əğyarə ayağı gərək.

Geyin al yaşıl, gəl olma bənak,
Gəşt eylə səhranı gəl olma bənak,
Kəs Məlikballı Qurban, gəl olma, bənak
Kababın yanmağa ayağı gərək.

Camalını görçək mayil olmuşam,
Bilmədim, gözəlim. ay adın nədir?
Səbrim aldı tamam türfə sənəmlər
Sənəmlərdə məzhəb, aya, din nədir?

Bu dünyada varmı yar-yoldaşın,
Fərhad külüng çaldı, yardı yoldaşın,
Aləmlər cəm olsa, yardı yoldaşın,
Qonumun, qardaşın, a yadin nədir?

Qurban deyər, yarsız günə gündə mən,
Xizrə yetər ləblərindən gündə mən,
Ziyarəti-hüsnə varam gündə mən,
Tamam günlərim, ay adın nədir?

Təcnisin "Əvvəl-axır" növünə aid olan "Gərək" əsəri sənətkarlıq baxımından maraq doğurur; "Məlikballı Qurban bu təcnisi söylədikdə digərlərinə faiq gəlmək üçün bir hünər də göstərmişdir ki, o da bütün misraların kaf hərfi ilə başlanıb, kaf hərfi ilə bitməsidir" [8 s. 150]. Əsərin birinci bəndində deyilik ki, "gözəl olan gözü nərgiz, şimşad ayağı olan gərək özünə bəzək versin. Öz giribanını, yəni geyimini elə geyinməlidir ki, sinəsinin ağlığı görünsün. Misraların sonundakı "bilək" sözləri omonimdir, çoxmənalı sözlərdir, xalis cinaslardır. Sonrakı bəndin birinci misrasında bağçaya lalə, sünbül ək deyilir, ikinci misrada qönçələrin böyüyüb lalə olduğun tanıyaq, üçüncüdə danışma, söyləmə lalə gəlməz, Lalənin kim olduğunu bilə

bilmərik. Dördüncü misrada gözəlin əğyara qismət olduğunu bilək söyləyir" [5 s. 58]. El şairinin "Vücudnamə" adlı daha bir əsəri də Salman Mümtaz tərəfindən toplanıb nəşr edilmişdir. Məlikballı Qurban yaradıcılığının özünəməxsusluğunu və sənətkarlıq qüdrətini özündə ifadə edən bu əsər bir çox tədqiqatçıların diqqət mərkəzində olmuşdur.

Əldə olunan qənaətlər deməyə əsas verir ki, Məlikballı Qurban xalq ədəbiyyatının görkəmli simalarından biri olmuş və onun Salman Mümtaz tərəfindən tədqiqi, ədəbi irsinin nəşri onu unudulmaq təhlükəsindən xilas etmiş, elmi ictimaiyyət tərəfindən tanınmasına kömək etmişdir.

## İstifadə olunmuş ədəbiyyat

1. Aşıq Ələsgər. Əsərləri. /Tərtib edəni: İslam Ələsgər/ Bakı, "Şərq-Qərb", 2004, 400 s.
2. Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı, Maarif,1981, 407 s.
3. Qasımzadə. F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Maarif,1974, 488 s.
4. Qasımlı M., Allahmanlı Mahmud. İzahlı aşıq ədəbiyyatı sözlüyü. Azərbaycan aşıqlar birliyi.Bakı 2019, 224 s.
5. Pirsultanlı Sədnik Paşa. "Azərbaycan aşıq poeziyasinda və yazılı poeziyada təcnisin inkişaf tarixi. Gəncə, GDU-nəşriyyatı, 2010, 156 s.
6. Salman Mümtaz. El şairləri. Bakı, Səda, 2005, 292 s.
7. "Ozan-aşıq ensiklopediyası". 2 cilddə, Aşıqlar Birliyi, "Gənclik" nəşriyyatı, II cild, Bakı, 2020, s. 69
8. Rufullayev Q. Salman mümtaz və Azərbaycan aşıq ədəbiyyatı.International Scientific Symposium Karabakh and West Azerbaijan: Triumph of Victory The 26th of October 2024, Stockholm / Sweden, s. 59-64.
9. Ustad nəfəsli saz-söz ərməğanı. Azərbaycan Aşıqlar Birliyi.Bakı, "Zərdabi Nəşr", 2020, 400, 102.

**Rəyçi: professor Səhər Orucova**